# Narkomaniyaya və erkən nikahlara qarşı mübarizə vətəndaşlıq borcudur

Lerik rayon A. Mirzəyev adına Şingədulan kənd tam orta məktəbində "Narkomaniyaya və erkən nikahlara qarşı mübarizə hər birimizin vətəndaşlıq borcudur" mövzusunda maarifləndirici görüşdə Rayon Polis şöbəsinin rəis müavini polis polkovnik-leytenantı Elçin Teymurov, Rayon İcra Hakimiyyətinin əməkdaşı Ramin Ağayev, Lənkəran-Astara Regional Gənclər və İdman İdarəsinin Lerik rayonu üzrə gənclər və idman sektorunun əməkdaşları, məktəbin müəllim və şagirdləri, eləcə də yeniyetmə və gənclər iştirak edirdilər.



Görüşdə çıxışlar zamanı narkomaniyanın və erkən nikahların cəmiyyətə, xüsusilə gənclərin fiziki və psixoloji sağlamlığına, təhsilinə və gələcək həyatına vurduğu ağır zərərlərdən danışıldı, bu kimi halların qarşısının alınmasında ötrü maarifləndirmənin, eləcə valideyn-məktəb-ictimaiyyət əməkdaşlığının vacibliyi bildirildi. Həmçinin o da vurğulandı ki, sağlam və savadlı gəncliyin formalaşması dövlətin əsas prioritet istiqamətlərindən biridir, bu sahədə hər bir vətəndaşın məsuliyyəti böyükdür.

Tədbir zamanı iştirakçıları ən çox düşündürən suallar öz cavabını tapdı, mövzu ətrafında geniş fikir mübadiləsi aparıldı.

Məlumat üçün qeyd edək ki, tədbir Lənkəran-Astara Regional Gənclər və İdman İdarəsinin, Lerik Rayon Polis Şöbəsinin birgə təşkilatçılığı ilə keçirilirdi.